**Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası beynəlxalq müqavilələrə uyğun olaraqQızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə olunması və onların müdafiəsi qaydalarını müəyyən edir və bu sahədə yaranan hüquq münasibətlərini tənzimləyir.

I fəsil

**ÜMUMİ MÜDDƏALAR** [1]

M a d d ə 1 . **Əsas anlayışlar**

Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

tibbi birləşmələr - tibbi məqsədlər üçün, yəni yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların axtarılması, götürülməsi, daşınması, diaqnozlaşdırılması və ilk tibbi yardım göstərilməsi də daxil olmaqla müalicəsi, habelə xəstəliklərin profilaktikası üçün yaradılmış hərbi və mülki tibb müəssisələrdir. Tibbi birləşmələr stasionar və ya səyyar, daimi və ya müvəqqəti ola bilər;

tibbi heyət - münaqişədə iştirak edən tərəfin müstəsna olaraq, tibbi məqsədlər üçün, habelə tibbi birləşmələrin inzibati - təsərrüfat təminatını həyata keçirmək üçün və ya sanitar nəqliyyat vasitələrində işləmək və onların inzibati - texniki təminatını həyata keçirmək üçün təyin etdiyi şəxslərdir;

sanitar nəqliyyat vasitələri - yalnız sanitar daşımalar üçün nəzərdə tutulan və münaqişədə iştirak edən tərəfin səlahiyyətli orqanının nəzarəti altında olan, hərbi və ya mülki, daimi və ya müvəqqəti daşıma vasitələrdir;

dini heyət - müstəsna olaraq özlərinin dini funksiyalarının yerinə yetirilməsi ilə məşğul olan və münaqişədə iştirak edən tərəfin silahlı, qüvvələrinə, tibbi birləşmələrinə və ya sanitar nəqliyyat vasitələrinə təhkim olunmuş şəxslərdir;

fərqləndirici emblem - tibbi birləşmələrin, sanitar nəqliyyat vasitələrinin, tibbi və dini heyətin, avadanlığın və ya ehtiyatların müdafiəsi üçün istifadə edilən, qızıl xaçın və ya qızıl Ayparanın ağ fonda təsvirindən ibarətdir;

fərqləndirici siqnal - tibbi birləşmələrin və ya sanitar nəqliyyat vasitələrinin tanınması üçün müəyyən olunmuş hər hansı siqnal və ya məlumatdır.

M a d d ə 2 . **Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə edilməsi və onların müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan və digər normativ hüquqi aktlardan, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

M a d d ə 3 . **Bu Qanunla müdafiə olunan obyektlər**

Bu Qanunla müdafiə olunan obyektlər aşağıdakılardır:

Qızıl Xaç və Qızıl Aypara emblemləri;

Qızıl Xaç və Qızıl Aypara adı;

tibbi birləşmələrin və sanitar nəqliyyat vasitələrinin tanınması üçün istifadə edilən fərqləndirici siqnallar.

M a d d ə 4 . **Qızıl Xaç və Qızıl Aypara emblemləri**

Qızıl Xaç emblemi - ağ fonun ortasında həmin fonun kənarına çatmamaq şərti və mərkəzdə düz bucaq altında kəsişdən iki bərabər düzbucaqlının qırmızı rəngli təsvirindən ibarətdir.

Qızıl Aypara emblemi - ağ fonun ortasında həmin fonun kənarına çatmamaq şərti ilə qırmızı rəngli aypara təsvirindən ibarətdir.

Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə qaydaları bu Qanunla, 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyaları ilə (bundan sonra - Cenevrə konvensiyaları), bu konvensiyalara əlavə olunan 1977-ci il 8 iyun tarixli 1 və 2 saylı protokollarla) bundan sonra - 1 və 2 saylı protokollar müəyyən edilir.

M a d d ə 5 . **Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadənin növləri**

Qızıl Xaç və Qızıl Aypara emblemləri Cenevrə konvensiyalarına, 1 və 2 saylı protokollara, habelə bu Qanuna uyğun olaraq müdafiə nişanı və ya fərqləndirici nişan qismində istifadə edilir.

II fəsil

**QIZIL XAÇ VƏ QIZIL AYPARA EMBLEMLƏRİNİN İSTİFADƏ EDİLMƏSİ QAYDALARI**

M a d d ə 6 . **Qızıl Xaç və Qızıl Aypara emblemlərindən müdafiə nişanı qismində istifadə olunmasına dair ümumi tələblər**

Hərbi münaqişə zamanı yaralılara, xəstələrə və gəmi qəzasına uğrayanlara yardım göstərilməsi ilə əlaqədar olaraq Cenevrə konvensiyalarının, 1 və 2 saylı protokolların müdafiəsi altında olan tibb və dini heyəti, tibbi birləşmələri, sanitar nəqliyyat vasitələrini və tibbi əmlakı nişanlamaq üçün müdafiə nişanı qismində Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə edilir.

Qızıl Xaç və Qızıl Aypara emblemlərinin uzaq məsafədən vizual görüntüsünü təmin etmək üçün onların ölçüləri mümkün qədər böyük olmalıdır.

Hərbi münaqişə zamanı öz statusunu təsdiq etmək üçün tibbi və dini heyətin üzvləri Cenevrə konvensiyaları ilə, 1 və 2 saylı protokollarla müəyyən edilmiş nümunəyə uyğun şəxsiyyət vəsiqəsinə və qol sarğısına malik olmalıdırlar.

Şəxsiyyət vəsiqəsi Azərbaycan dilində tərtib edilir. Vəsiqədə onun sahibinin soyadı və adı, doğum tarixi, rütbəsi və hərbi hissəsinin nömrəsi, habelə onun hansı qisimdə Cenevrə Konvensiyasının himayəsi altında olduğu göstərilir. Şəxsiyyət vəsiqəsində onun sahibinin fotoşəkili və imzası olmalıdır. Şəxsiyyət vəsiqəsi onu verən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən möhürlə təsdiq edilir.

Şəxsiyyət vəsiqəsini itirən şəxsə onun dublikatı verilir.

Tibbi və ya dini heyət üzvlərinə verilən qol sarğısı üzərində fərqləndirici nişan olmalı və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən möhürlə təsdiq edilməlidir.

M a d d ə 7 . **Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının tibbi xidmətləri tərəfindən Qızıl Aypara emblemindən müdafiə nişanı qismində istifadə edilməsi**

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının tibb xidmətləri münaqişə zamanı və dinc dövrdə yalnız özlərinin tibbi heyətini, tibbi birləşmələrini, sanitar nəqliyyat vasitələrini və tibbi əmlakını nişanlamaq üçün müdafiə nişanı qismində Qızıl Aypara emblemindən istifadə edirlər.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının tibbi xidmətləri özlərinin tibbi heyət üzvlərinə şəxsiyyət vəsiqəsi və qol sarğısı verir.

M a d d ə 8 . **Mülki tibbi birləşmələr tərəfindən Qızıl Aypara emblemindən müdafiə nişanı qismində istifadə edilməsi**

Hərbi münaqişə zamanı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının razılığına əsasən və bilavasitə onun nəzarəti altında mülki tibbi heyət, tibbi birləşmələr, sanitar nəqliyyat vasitələri və tibbi əmlak müdafiə nişanı qismində istifadə edilən Qızıl Aypara emblemi ilə nişanlanır.

Mülki tibbi heyət üzvlərinə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən şəxsiyyət vəsiqəsi və qol sarğısı verilir.

M a d d ə 9 . **Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qızıl Aypara emblemindən müdafiə nişanı qismində istifadə edilməsi**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının sərəncamına verilən tibbi heyət, tibbi birləşmələr, sanitar nəqliyyat vasitələri və tibbi əmlak müdafiə nişanı qismində istifadə edilən Qızıl Aypara embləmi ilə nişanlanır.

Bu maddənin birinci hissəsində göstərilən tibbi heyətə, tibbi birləşmələrə, sanitar nəqliyyat vasitələrinə və tibbi əmlaka hərbi münaqişə zamanı qüvvədə olan Azərbaycan Respublikasının normativ hüquqi aktları şamil olunur.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları onların sərəncamına verilən tibbi heyət üzvlərinə şəxsiyyət vəsiqəsi və qol sarğısı verir.

M a d d ə 1 0 . **Xüsusi vəkalət olmadan Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə edən təşkilatlar**

Beynəlxalq Qızıl Xaç Komitəsi, Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyası hərbi münaqişə zamanı və ya dinc dövrdə Cenevrə konvensiyalarına, 1 və 2 saylı protokollara uyğun olaraq öz fəaliyyətlərində Qızıl Xaç və Qızıl Aypara emblemlərindən və adlarından xüsusi vəkalət olmadan istifadə edirlər.

M a d d ə 1 1 . **Qızıl Xaç və Qızıl Aypara emblemlərindən fərqləndirici nişan qismində istifadə edilməsi**

Hərbi münaqişə zamanı və ya dinc dövrdə şəxslərin, sanitar nəqliyyat vasitələrinin, tibbi əmlakın və digər obyektlərin Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatına mənsubiyyətini göstərmək üçün fərqləndirici nişan qismində Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə edilir.

Fərqləndirici nişan qismində istifadə edilən Qızıl Xaç və Qızıl Aypara emblemləri öz ölçülərinə görə müdafiə nişanı qismində istifadə edilən emblemlərdən kiçik olmalıdır.

M a d d ə 1 2 . **Fərqləndirici siqnallar**

Fərqləndirici siqnallardan yalnız tibbi birləşmələr və sanitar nəqliyyat vasitələri istifadə edirlər. Fərqləndirici siqnallara: işıq siqnalı, radiosiqnal, elektron tanınma vasitəsi aiddir.

İşıq siqnalı sanitar uçuş aparatları tərəfindən onların tanınması məqsədilə istifadə edilən sayrışan mavi işıq şəklində olan siqnaldır. Hər hansı başqa uçuş aparatının bu sinqaldan istifadəsi yolverilməzdir.

Radiosiqnal Beynəlxalq Telekommunikasiya Birliyinin Radio Qaydalarında müəyyən edilmiş radiotelefon və ya radioteleqraf məmulatlarından ibarətdir.

Elektron tanınma Beynəlxalq Mülki Aviasiya haqqında 1994-cü il 7 dekabr tarixli Çikaqo Konvensiyasının 10-cu əlavəsində nəzərdə tutulan və vaxtaşırı dəyişikliklər edilən ikinci Dərəcəli radar Müşahidə (SSR) sistemindən sanitar uçuş aparatlarının tanınmasından və onun kursunun müşahidə olunmasından ibarətdir.

Fərqləndirici siqnallardan istifadə qaydaları 1 və 2 saylı protokollara edilən Əlavələrlə müəyyən olunur.

M a d d ə 1 3 . **Dini heyətin statusu**

Bu Qanunun tibbi heyətin müdafiəsi ilə bağlı müddəaları istisnasız olaraq dini heyət üzvlərinə də şamil olunur.

## I I I f ə s i l

## YEKUN MÜDDƏALAR

M a d d ə 1 4 . **Qızıl Xaç və Qızıl Aypara emblemlərindən, onların adından və fərqləndirici siqnallarından qanunsuz istifadə etmə**

Fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində bu Qanuna, Cenevrə konvensiyalarına, 1 və 2 saylı protokollara zidd olaraq:

a) Qızıl Xaç və Qızıl Aypara emblemlərindən müdafiə nişanı və ya fərqləndirici nişan qismində istifadə edilməsi;

b) fərqləndirici siqnallardan istifadə edilməsi;

c) hüquqi şəxslərin adlarında, əmtəə nişanlarında Qızıl Xaç və Qızıl Aypara emblemlərindən və onların adlarından istifadə edilməsi;

ç) Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının prinsipləri ilə bir araya sığmayan məqsədləri üçün Qızıl Xaç və Qızıl Aypara emblemlərindən və onların adlarından istifadə edilməsi;

d) müdafiə nişanı qismində istifadə edilən Qızıl Xaç və Qızıl Aypara emblemləri kimi qəbul edilə biləcək hər hansı oxşar nişanlardan istifadə edilməsi qadağandır.

M a d d ə 1 5 . **Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə edilməsi üzərində nəzarət**

Azərbaycan Respublikasının ərazisində Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə edilməsi üzərində nəzarəti Azərbaycan Qızıl Aypara Cəmiyyəti və öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

M a d d ə  1 6 . **Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun pozulmasında təqsirli olan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 8 may 2001-ci il
128-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 8 may 2007-ci il tarixli 326-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,   5, maddə 443**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 8 may 2007-ci il tarixli **326-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu(**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il,   5, maddə 443**) ilə Qanunun adında, preambulasında, II fəslin adında, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı, 7-ci, 8-ci, 9-cu, 10-cu, 11-ci, 14-cü və 15-ci maddələrində "**Qırmızı Xaç**" və "**Qırmızı Aypara**" sözləri müvafiq olaraq "**Qızıl Xaç**" və "**Qızıl Aypara**" sözləri ilə əvəz edilmişdir, 1-ci maddədə "**qırmızı xaçın**" və "**qırmızı ayparanın**" sözləri müvafiq olaraq "**qızıl xaçın**" və "**qızıl ayparanın**" sözləri ilə əvəz edilmişdir.